UOT: 332.1:338.24:R11; R12; R58

Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru.
AZ1124, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Nərimanov küç.93,
E-mail: emeherremov79@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.319

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA AQRAR SAHƏNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ YOLLARI

Xülasə

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının dövlət tənzimlənməsi yollarının təkmilləşdirilməsi istiqamətində yeni mexanizmlərin hazırlanmasıdır. Yeni yaradılmış iqtisadi rayonlarda aparılan quruculuq və dirçəliş tədbirləri intensivləşməkdədir. Keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qayıtmaqdadırlar. Bu baxımdan region üçün ənənəvi və səmərəli olan iqtisadiyyat sektoru kimi aqrar sahənin inkişafının dövlət tənzimlənməsinin daha səmərəli təşkilinə ehtiyac vardır.

Tədqiqatın metodologiyası formasında əsasən analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf etdirilməsi üzrə elmi əsərlərə istinad edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən qeyd etmək olar ki, məqalədə verilmiş nəticələrdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə edilməsi mümkündür.

Tədqiqatın nəticələri baxımından bunu qeyd etmək olar ki, göstərilən yeni iqtisadi rayonlarda aqrar sahənin inkişafı ilə bağlı tədbirlər kompleksinin hazırlanmasında məqalənin yekun müddəalarından istifadə etmək məqsədəuyğundur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi kimi qeyd edə bilərik ki, hazırkı dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsi mexanizmlərinin maksimum səmərəli və məhsuldar olmasının vacibliyi əsaslandırılmışdır. Regionun inkişaf xüsusiyyətlərinə və resurs təminatına uyğun olaraq bu iqtisadi rayonların iqtisadiyyat quruculuğunda aqrar sahənin rolu təhlil olunmuş və praktiki baxımdan fərqlənən daha səmərəli fəaliyyət mexanizmləri və istiqamətləri verilmişdir. Regionda aqrar sahənin mümkün resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinin vacibliyi diqqətə çatdırılmış və müvafiq fəaliyyət mexanizmləri ilə bağlı təkliflər ümumiləşdirilmişdir.

Açar sözlər: Qarabağ, Şərqi Zəngəzur, iqtisadi rayonlar, aqrar sahə, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin resursları.

Giriş

Müasir qlobal çağırışlar şəraitində iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi kompleks və sistemli yanaşmanı şərtləndirir. Bununla bağlı olaraq, resurslardan səmərəli və məhsuldar istifadə olunması mexanizmlərinin hazırlanması və tətbiqi məsələləri ön plana keçir. Qlobal səviyyədə iqtisadiyyatın səmərəliliyi baxımından kifayət qədər problemlər vardır və belə problemli iqtisadiyyat sahələrindən biri də aqrar sahədir. Dünya ölkələrinin bir çoxunda qlobal ərzaq təhlükəsizliyi problemləri özünü büruzə verməkdədir. Bu bir tərəfdən qlobal iqlim dəyişikliklərinin təsirindən kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində yaranan çətinliklərlə bağlıdırsa, digər tərəfdən, müasir yüksək texnologiyaların əlçatanlığının əksər ölkələr üçün mümkün olmaması ilə əlaqəlidir. Eyni zamanda, bütövlükdə aqrar sahənin elmi əsaslarla inkişaf etdirilməsi davamlı tədqiqatlar və iri məbləğdə investisiyalar tələb edir. Buna görə də dövlətlərin aqrar siyasətində bu məsələlərin nəzərə alınması və inkişaf istiqamətlərinin adekvat olaraq müəyyənləşdirilməsi tələb olunur.

Azərbaycan müstəqil dövlət kimi öz iqtisadiyyatının strukturunu müəyyənləşdirir və onun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür. Xüsusilə, iqtisadi rayonların sosial-iqtisadi inkişafına konseptual yanaşmalar mövcuddur və 2004-cü ildən başlayaraq 4 məqsədli Dövlət Proqramı həyata keçirilmişdir. Amma, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu məsələlər xüsusi yanaşmaları və fərqli fəaliyyət mexaznizmlərinin olmasını şərtləndirir [2]. Ümumən qeyd edə bilərik ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərin bərpası və dirçəldilməsi istiqamətlərində müəyyən konsepsiya formalaşdırmışdır və özünəməxsus inkişaf modeli tətbiq etmişdir. Yəni, heç bir beynəlxalq maliyyə institutundan, dünya banklarından və ölkələrindən asılı olmayan fəaliyyət modelinə üstünlük vermiş və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində dövlət büdcəmizin vəsaitləri hesabına maliyyələşdirilən investisiya-innovasiya və sosial-iqtisadi inkişaf layihələrinə üstünlük ön plana çəkilmişdir.

2021-ci ildən başlayaraq dövlət büdcəsindən bununla bağlı məqsədli vəsait ayrılır. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına Böyük Qayıdışının təmin edilməsi üzrə I Dövlət Proqramının həyata keçirilməsinə ümumilikdə 30,5 milyard manat sərf olunacaqdır. Bu proqram çərçivəsində istehsal, sosial, xidmət sahələrinin inkişafı da diqqət mərkəzində saxlanılmaqdadır və əhalinin məşğulluq məsələlərinə də ciddi önəm verirlər. Qeyd olunanlar baxımından aqrar sahənin inkişafı və bununla bağlı səmərəli tədbirlərin görülməsi müstəsna əhəmiyyət kəsb edir [8]. Eyni zamanda, ölkə prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişaf haqqında Milli Prioritetlər”də iqtisadiyyatımızın şaxələndirilməsi, yaşıl iqtisadiyyatın formalaşdırılması və işğladan azad olunmuş ərazilərin iqtisadiyyat quruculuğunun səmərəli təşkili hədəfləri yer almışdır [1].

Yeni şəraitdə Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının dövlət tənzimlənməsi proseslərinin tədqiqi

Qeyd edək ki, müasir dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi ilə yanaşı, aqrar sahənin inkişaf etdirilməsi tədbirlərinə başlanılmışdır. Ərazilərin minalardan təmizlənməsi, infrastrukturun yaradılması, əkin sahələrinin təhlükəsizliyinin və səmərəliliyinin təmin olunması tədbirləri görülmüşdür. Artıq mümkün olan ərazilərdə kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsinə start verilmişdir. Xüsusilə, ərzaqlıq buğda əkininə prioritetlik verilməkdədir. Laçında aqrar sahənin kompleks və elmi əsaslarla inkişaf etdirilməsi üçün aqrokompleks yaradılmışdır və burada fəaliyyətin təşkili təmin edilmişdir. Yenə Laçında balıqçılığın inkişaf etdirilməsi infrastrukturu formalaşdırılmışdır. Laçın və Kəlbəcər rayonlarında heyvandarlığın inkişafı üzrə mümkün tədbirlər reallaşdırılmaqdadır. Təsərrüfatlar yaradılır və bununla bağlı dövlət tərəfindən fermer təsərrüfatlarına və yerli sakinlərə, ailə təsərrüfatlarına dəstək verilməkdədir.

Qeyd edək ki, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmasını özündə ehtiva edən I Dövlət Proqramında 100 yaşayış məntəqəsinə Böyük Qayıdış reallaşdırılacaqdır. Bunlardan 8 şəhər, 8 qəsəbə və 84 kənd yaşayış massivlərini qeyd etmək olar. Maraqlıdır ki, kənd yaşayış məntəqələrinin məskunlaşması zamanı həmin ərazilərdə fermer təsərrüfatlarının yaradılması şəraiti də təmin edilir. Digər tərəfdən, bu yaşayış məntəqələrində evlə təmin olunanlar həm də torpaq sahələri ilə təmin edilirlər. Bunlarla bərabər, dövlət strukturları tərəfindən əvvəldə qeyd etdiyimiz kimi birinci növbədə kənd infrastrukturu yaradılır, suvarma sistemləri təşkil edilir və eyni zamanda, deqradasiya olunmuş torpaq sahələrinin təsərrüfat dövriyyəsinə qaytarılması tədbirləri görülür. Burada əkiləcək kənd təsərrüfatı məhsullarının məhsuldarlıq imkanları araşdırılır və fermer təsərrüfatlarına, həmçinin ailə təsərrüfatlarına müəyyən məsləhətlər verilir. Kənd təsərrüfatı texnikası və avadanlıqları ilə güzəştli təmin edilmə mexanizmlərinin hazırlanması və tətbiqi də diqqət mərkəzindədir.

Dövlətimiz tərəfindən işğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış iqtisadi rayonlarda kənd təsərrüfatının yenidən qurulması, kadastr sisteminin tətbiq edilməsi və real kənd təsərrüfatı torpaqlarının potensialının müəyyənləşdirilməsi, bu sahələrdə daha münasib məhsul əkib-becərməyin strukturunun müəyyənləşdirilməsi tədbirləri ön plana çıxmışdır. Bundan əlavə, məlumdur

ki, aqrar sahənin fəaliyyətinin daha səmərəli təmin edilməsi üçün müvafiq kommersiya qurumlarına və tədarük kanallarının (təchizat və satış) təşkilinə, istehsal olunmuş məhsulun itkisiz yığılması, anbarlaşdırılması və emal sahələrinə çatdırılması mexanizmlərinin işlənilməsi, hazırlanması və tətbiqinə zərurət vardır.

Məlumdur ki, dövlət tərəfindən işğladan azad olunmuş ərazilərdə dövlət dəstəyi mexanizmlərinin əhatəsi genişdir, o cümlədən vergi güzəştləri mövcuddur, sığorta faizləri üzrə subsidiyalar var, güzəştli maliyyə-kredit resurslarına çıxış təmin olunub və digər stimullaşdırıcı, dəstəkləyici alətlər dövriyyədədir. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf etdirilməsinin intensivləşdirilməsi üçün daha çox fəaliyyət istiqamətlərinin dövriyyəyə cəlb edilməsi vacibdir. Yəni, bu ərazilərdə dövlət – özəl sektor əməkdaşlığının qanunvericilikdə nəzərdə tutulan mexanizmlərindən səmərəli istifadə edilməsinə ehtiyac qalmaqdadır.

Hesab edirik ki, daha çox stimullaşdırıcı layihələr hazırlanmalı, qrant müsabiqələr keçirilməli və kiçik – orta sahibkarlıq subyektlərinin aqrar sahədə fəallığının artırılması tədbirləri görülməlidir. Kənd Təsərrüfatı Nazirliyinin müvafiq strukturları tərəfindən işğaldan azad olmuş ərazilərdə xüsusi mütəxəssis qruplarının formalaşdırılması və bu sahədə fəaliyyət göstərmək niyyətində olanlara praktiki köməklik göstərilməsi məqsədəuyğundur.

Digər tərəfdən, məlumdur ki, dünya təcrübəsində bölgələrdə kənd təsərrüfatının və aqrar sahənin inkişafına yönəlik layihələr və tədbirlər kompleksi həyata keçirilir. Məsələn, yerli bazarın mühüm ərzaq məhsulları ilə təminatı istiqamətində məhsul istehsalının stimullaşdırılması, yaxud aqrar ixrac məhsullarının çeşidinin artırılması layihələrinin icrasına dəstək mexanizmlərinin artırılması və s. bu kimi motivasiyaedici tədbirlər kimi baxıla bilər. Bundan əlavə, artıq ölkəmizdə qüvvədə olan Vergi Məcəlləsində Kənd təsərrüfatı sferasında bir sıra istiqamətlər üzrə vergidən azadolma, yaxud müəyyən güzəştləri vardır. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergidən azaddırlar, həmçinin ölkə üzrə buğdanın idxal edilməsi və satışı əlavə dəyər vergisindən (ƏDV) azaddır. Ümumiyyətlə, ölkəyə toxum və tinglərin gətirilməsi, həmçinin damazlıq heyvanların idxal edilməsi də ƏDV-yə cəlb olunmur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük perspektivi olan arıçılıq sahəsinin inkişafı üçün də müəyyən stimullaşdırıcı mexanizmlər tətbiq edilmişdir. Buna arıçılıq üçün avadanlıqların idxalı və satışının ƏDV-dən azad edilməsini göstərmək olar. Ölkəmizdə aqrotexniki xidmətlərdən də ƏDV tutulmur. Bu amillər baxımından “İşğaldan azad olunmuş regionlarda dövlət tənzimləmə tədbirlərinin vaxtında həyata keçirilməsi, xüsusilə sabitliyin pozulması ehtimalının mövcud olduğu böhrandan sonrakı şəraitdə daha çox aktualdır. Ona görə aqrar sahədə institusional tənzimləmə tədbirləri iqtisadi və inzibati tədbirlərdən daha tez tətbiq edilmə tələbini formalaşdırır və hazırkı şəraitdə onların qarşılıqlı istifadəsi zəruridir. İşğaldan azad edilən regionların sosial-iqtisadi inkişafının tənzimlənməsinin səmərəli olması üçün mütəmadi korrektə edilən mexanizmlərə ehtiyacı var. Bu baxımdan aqrar sahədə forsaytın tətbiq edilməsi proqnozlardan fərqli olaraq, sistematik düzəlişlər edilərək regionlarda vəziyyəti dəqiq görməyə imkan verir” [5, s. 109]. Eyni zamanda, hesab edirik ki, postkonflikt ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi baxımından zəruri olan mexanizmlərin sistemli şəkildə nəzərə alınması vacibdir [7].

Bunlarla bərabər, aqrar sahənin inkişafı baxımından, Qarabağ və Şərqi Zəngəzurun mövcud potensialı yaxın gələcəkdə daha yaxşı nəticələr verəcəkdir. İqtisadi rayonların yenidən qurulması, onların sosial-iqtisadi və kompleks inkişafının təmin edilməsi yaxın gələcəkdə ölkənin digər iqtisadi rayonlarında da idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və əlavə tədbirlərin görülməsinə ciddi əsaslar yaradacaqdır. Analoji prosesləri dərinləşdirmək məqsədilə Azərbaycanın iqtisadi rayonlarında mühüm ərzaq məhsullarının məhsuldar sortlarının yetişdirilməsi, seleksiya işlərinin davam etdirilməsi, həmin sahədə qabaqcıl dünya təcrübəsinin tədqiqi, öyrənilməsi və tətbiqi zəruridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii sərvətlərdən və torpaq fondlarından səmərəli istifadə etməklə aqrar sahənin fəaliyyətini müasirliyin tələblərinə uyğunlaşdırmaq üçün ərazilərin resurs potensialını və xüsusilə aqrar sahənin inkişafı üçün mövcud imkan və ehtiyatlar diqqətlə öyrənilməli, məqsədli dövlət proqramları hazırlanmalı və kompleks tədbirlər

görülməli, ölkəmizin iqtisadi rayonlarında mühüm ərzaq məhsulu olan buğdanın istehsal sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması problemlərinə kompleks və ardıcıl yanaşma təmin edilməli, müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafında qabaqcıl beynəlxalq təcrübə qiymətləndirilməli və yüksək texnologiyaların tətbiqi prioritet olmalı, yaxın gələcəkdə yüksək texnologiyalara əsaslanan emal üçün kənd təsərrüfatı holdinqləri yaradılmalı və ölkəmizdə çoxfunksiyalı şəbəkə emal müəssisələri kompleksi istifadəyə verilməlidir [11, s. 53].

Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafında dövlət tənzimlənməsi mexanizmlərinin tətbiqi istiqamətləri

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqro-emal müəssisələrinin yaradılması proseslərinə başlanılmış və bununla bağlı tədbirlərin genişləndirilməsi diqqət çəkir. Bu sırada mühüm məsələlərdən biri fermer təsərrüfatlarının və aqroemal müəssisələrinin nəqliyyat-logistika infrastrukturuna çıxışının təmin olunması, toxum və kənd təsərrüfatı gübrələri ilə təminatın gücləndirilməsi və istehsal olunmuş aqrar məhsulların yerli, regional, ölkə və beynəlxalq bazarlara çıxışının yüksək səviyyədə təmin edilməsi müstəsna əhəmiyyət kəsb edir. Məlumdur ki, hər iki iqtisadi rayonda su resurslarının kifayət qədər mənbəyi vardır və buna görə də su resurslarından səmərəli istifadə edilməsi infrastrukturunun yaradılması və suvarılacaq torpaq sahələrinin uçotunun dəqiq aparılması ilə yanaşı, digər zəruri tədbirlərin görülməsi də vacibdir. Yeni yaradılmış iqtisadi rayonlarda hələ ki, müvafiq dövlət strukturlarının əlaqəli fəaliyyəti geniş xarakter almayıb və bələdiyyə institutu tam olaraq formalaşdırılmayıb. İdarəetmə strukturu yenidir və əsas diqqət keçmiş məcburi köçkünlərin Böyük Qayıdışdan sonra yarana biləcək gündəlik qayğılarına, problemlərinə yönəldilib. Bu isə təbiidir və qanunauyğundur, amma fikrimizcə, tədricən yerli hakimiyyət orqanları öz fəaliyyətlərini gücləndirdikcə aqrar sahənin inkişafı üçün daha səmərəli və çoxşaxəli dəstək mexanizmlərinin həyata keçirilməsi mümkün olacaqdır.

Hesab edirik ki, prioritet məsələlərdən biri də aqro-emal müəssisələrinin rəqabətli şəbəkəsinin yaradılmasıdır. Belə ki, istehsal olunacaq məhsullarda kənd təsərrüfatı məhsullarının aqrar-emal müəssisələrində səmərəli şəkildə emal edilməsi və hazır məhsula çevrilməsi vacibdir. İşğaldan azad olunmuş ərazilərdə əsasən taxıl, pambıq, üzüm, meyvə məhsulları, tütün, tərəvəz məhsulları yetişdirilirdi. 1970-1980-ci illərdə bu ərazilərdə çoxlu sayda aqrar-emal müəssisələri, o cümlədən şərab emalı və pambıq zavodları, tütünçülük müəssisələri, yağ-pendir zavodları, diri heyvan qəbulu və onların kəsimi məntəqələri, karamel-qənnadı fabrikləri, çörək-bulka məmulatları zavodları, həmçinin kənd təsərrüfatı texnikası və gübrə təminatı müəssisələri fəaliyyət göstərirdi. Əlbəttə, bunlar planlı iqtisadiyyat şəraitində mümkünləşmişdi. Hazırda isə vəziyyət başqadır, yəni bazar iqtisadiyyatı şəraitində fəaliyyət mexanizmlərinin tətbiqi tələb olunur [13]. Bu baxımdan, dövlət tərəfindən işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin maddi-texniki bazasının gücləndirilməsi və xüsusi tədbirlərin görülməsi tələb olunur. İlk növbədə əkin sahələrinin məhsuldarlığının təmin olunması və onların pasportlaşdırılması, inventarlaşdırılmanın aparılması vacibdir. Ümumiyyətlə, kənd təsərrüfatının inkişaf mexanizmlərinin yenilənməsi və müasir texnologiyalar əsasında formalaşdırılması ölkəmizin kənd təsərrüfatı sferasının yeni inkiaşf mərhələsinə keçidini sürətləndirməkdədir [12, s. 89].

Digər tərəfdən, regionun iqlim və torpaq fondlarının, su ehtiyatlarının real resursları nəzərə alınmaqla çoxillik əkmələrin planlaşdırılması və proqnozlaşdırılması məqsəduyğundur, yəni dövlət strukturları ilə kənd təsərrüfatı və aqrar-emal sahənin subyektləri ümumilikdə bu 2 yeni yaradılmış iqtisadi rayonda perspektivli fəaliyyət istiqamətlərini müəyyənləşdirməli və buna uyğun tədbirlər görülməlidir. Məlumdur ki, Qarabağ iqtisadi rayonunun ərazisində ərzaqlıq buğdanın əkilməsi və onun istehsalının artırılması imkanları yüksəkdir. Fikrimizcə, bu istiqamətdə xüsusi ixtisaslaşmaya ehtiyac vardır. Bundan əlavə, Qarabağın əksər inzibati rayonlarında qiymətli və müxtəlif bazarlarda geniş satış imkanları olan meyvələr (xurma, ərik, nar, üzüm və s.) yetişir və bu məhsulların itkisiz, operativ olaraq satış bazarlarına çıxarılması infrastrukturu yaradılmalıdır [10]. Başqa sözlə, regionda yetişdirilən kənd təsərrüfatı məhsullarının tədarükü və aqrar-emal müəssisələrinə təhvil verilməsi mexanizmləri genişləndirilməlidir. Heyvandarlığın güclü poten-

sialı nəzərə alınmaqla, yüksək texnologiyalar əsaslı süd və süd məhsulları, ət və ət məhsulları emal və istehsal edən rəqabətqabiliyyətli müəssisələr şəbəkəsi yaradılmalıdır. Nəzərə alsaq ki, Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı nəqliyyat layihələri həyata keçirilir və 3 beynəlxalq hava limanları istismara verilmişdir, bu baxımdan tez xarab olan kənd təsərrüfatı və aqrar məhsulların hava nəqliyyatı vasitəsilə potensial maliyyə tutumlu bazarlara çıxarılması mexanizmlərinin hazırlanması və tətbiqi də olduqca vacibdir. Bütün bunlar işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin investisiya cəlbediciliyinin artırılmasına və aqrar müəssisələr şəbəkəsinin genişləndirilməsinə əlavə stimullar verə bilər. Bu proseslərdə öncül idarəetmə sistemlərinin tətbiq olunması şəraitində sahibkarlığın inkişafının maksimum stimullaşdırılması zəruridir [4].

Bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf proseslərinin sürətləndirilməsi və son nəticədə daha səmərəli mexanizmlərin tətbiq olunması tələb olunur. Yəni burada iqtisadi rayonların resurs potensialı dərindən araşdırılmalı, tədqiqatlar və qiymətləndirmələr aparılmalı, emal şəbəkəsi müəssisələrinin yaradılması tədbirləri görülməli və dövlət investisiyaları ilə bərabər, özəl investisiyaların, o cümlədən ən azından dost ölkələrdən xarici investisiyaların cəlb olunması tədbirləri görülməlidir. Bu qeyd olunan tədbirlər sayəsində regionda kənd təsərrüfatının müxtəlif perspektivli fəaliyyət istiqamətlərinin resurslarından məhsuldar istifadə edilməsi mümkünləşər və aqrar sahənin inkişafına əlavə imkanlar yaranar. Digər tərəfdən, yeni yaradılmış iqtisadi rayonlarda sahibkarlığın və biznesin inkişafına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin gəlirlərinin diversifikasiyalaşdırılmasına və yaşayış şəraitinin daha da yaxşılaşdırılmasına yeni imkanlar yaranar. “İqtisadi rayonların planlı və nizamlı şəkildə idarə edilməsi, burada tələb olunan prioritet layihələrin hazırlanması və reallaşdırılması, dövlət tərəfindən maliyyə-investisiya mexanizmlərinin işlənib hazırlanması və tətbiqi, digər maliyyə mənbələrinin inkişafı üçün münbit şəraitin yaradılması, əhalinin məşğullugunun təmin olunması və iqtisadi fəallığının artırılması, sosial infrastrukturun yaradılması, istehsal və kommersiya infrastrukturunun təmin edilməsi, sahibkarlığın stimullaşdırılması və biznes mühitinin əlverişliliyinə nail olunması mühüm əhəmiyyət kəsb edir. İqtisadi rayonların dayanıqlı və dinamik inkişafı üçün iqtisadi fəaliyyətin modelləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi dövlət siyasətinin tərkib hissəsi kimi çıxış edir. Məsələn, Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə prioritet istiqamətlər müəyyənləşdirilmişdir və bu istiqamətlər üzrə maraqlı, həm də potensial investorların cəlb edilməsi tələb olunur” [3, s. 69]. Digər tərəfdən, qeyd olunan yeni iqtisadi rayonlarda aqrar sahənin rəqəmsallaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Belə ki, dövlət tərəfindən bu iqtisadi rayonlarda rəqəmsal texnologiyaların səmərəli tətbiq olunması üçün rəqəmsal infrastrukturun yaradılması məqsədilə maliyyə vəsaitləri yönəldilməlidir. Məsələn, kənd təsərrüfatı təyinatlı pilotsuz uçuş aparatları, robot texnikaları və digər rəqəmsal texnologiyaların ölkəmizə idxal edilməsi və satışının genişləndirilməsi məqsədilə bu texnologiyalar üzrə idxal qadağanedici siyasətlərə yenidən baxılması və qanunvericilik bazasının təkmilləşdirilməsi mühüm şərtdir [9, s. 36-38]. Eyni zamanda, aqrar sahənin rəqəmsallaşdırılması fermer təsərrüfatlarının və kənd təsərrüfatı müəssisələrinin “ağıllı” texnologiyalar vasitəsilə idarə edilməsi, xərclərin optimallaşdırılması və gəlirlərin artırılması mümkündür [6]. Bütün bunlar yaxın perspektivdə işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişafını intensivləşdirməyə imkan verəcəkdir.

Nəticə

Beləliklə, müasir qlobal çağırışlar nəzərə alınmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafının sürətləndirilməsi və bu proseslərdə dövlət tənzimlənməsinin təmin olunması, dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması üçün bir qrup məsələlər nəzərə alınmalıdır:

– Nəzərə almaq lazımdır ki, postkonflikt ərazilərdə fəaliyyət sahələri, iqtisadi subyektlər, biznes və sahibkarlıq subyektləri kifayət qədər güzəştlər əldə etmək imkanlarına malikdirlər. Bunlara vergi güzəştləri, həmçinin digər dövlət dəstəyi mexanizmlərini aid etmək olar;

– Bunlarla bərabər işğaldan azad olunmuş ərazilərdə bazar infrastrukturunun inkişaf etdiril-

məsinə, sağlam rəqabət mühitinin yaradılmasına, bu proseslərə özəl sektor subyektlərinin və özəl investorların daha fəal şəkildə cəlb edilməsinə ehtiyac vardır;

– Aqrar sahənin strateji rolu nəzərə alınmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu sahədə sahibkarlığın inkişafının stimullaşdırılması üzrə məqsədli qrant müsabiqəsinin keçirilməsi faydalı ola bilərdi;

– Aqrar sahənin inkişafı üzrə beynəlxalq mütərəqqi təcrübənin, xüsusilə mühüm kənd təsərrüfatı məhsullarının istehsalı və aqrar-emal kompleksinin fəaliyyətinin təşkili istiqamətində qabaqcıl modellərin postkonflikt ərazilərdə tətbiqi məqsədilə müştərək müəssisələrin yaradılması və xarici investisiyaların cəlb edilməsi səmərəli ola bilər və s.

ƏDƏBİYYAT

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişaf haqqında Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il. [Elektron resurs]/ URL: https://president.az/az/articles/view/52389/.
3. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, – sentyabr, 2021. №4(64), – s. 67-72.
4. Əliyev, T.N. İşğaldan azad edilmiş Azərbaycan ərazilərində qabaqcıl idarəetmə metodları əsasında sahibkarlığın inkişaf istiqamətləri. // İqtisadi artım və sosial təminat, buraxılış I, – Bakı: Elm, 2021, – s. 10-19.
5. Əmirova, Ü.N. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin tənzimlənməsi istiqamətləri // Audit, 2023. 2 (40), s. 103-112; DOI: 10.59610/bbu2.2023.2.11.
6. Əsədov, Z.R. Aqrar sahənin inkişafında rəqəmsallaşdırmanın yeri və rolu // “Kənd təsərrüfatı iqtisadiyyatı” jurnalı, – 2021. №3(37), –s. 9-16.
7. “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli Sərəncamı.
8. Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. – Bakı: “Kooperasiya” nəşriyyatı, – 2023. – 320 s.
9. Mahmudov, E. Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarında aqrar sektorun rəqəmsallaşdırılması // “İqtisadi islahatlar” elmi-analitik jurnalı, № 4(9), –s. 29-40.
10. Məhərrəmov, E.M. İqtisadi rayonlarda aqrar sahənin inkişafının metodoloji aspektləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası – 2022 (may-iyun). – s. 57-64.
11. Məhərrəmov, E.M. Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin innovativ inkişaf perspektivləri // Qərbi Kaspi Elmi Xəbərləri, – 2024. № 3, (İctimai və Texniki elmlər seriyası), – s. 48-55.
12. Nuriyev, Ə.X. Azərbaycanın kənd təsərrüfatı yeni inkişaf mərhələsində. MEA-nın Xəbərləri. İqtisadiyyat seriyası – 2021 (mart-aprel), – s.87-92.
13. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // “Вопросы истории”, Москва, 2022. № 6, s. 148-155. [Elektron resurs]/ URL: https://elibrary.ru/item.asp?id=48808624.

Эльдениз Мазахир оглы МАГЕРРАМОВ
Доктор философии по экономике, доцент
Азербайджанского Университета Кооперации,
AZ1124, Н.Нариманов, 93, Баку, Азербайджанская Республика
E-mail: emeherremov79@mail.ru

Пути государственного регулирования развития сельскохозяйственного сектора в Карабахе и восточном Зангазуре

Резюме

Цель исследования – является разработка новых механизмов совершенствования способов государственного регулирования развития аграрного сектора в Карабахе и Восточном Зангезуре. Усиливаются строительные и возрожденческие мероприятия, проводимые во вновь созданных экономических районах. Бывшие вынужденные переселенцы возвращаются на родные земли. В связи с этим возникает необходимость в более эффективной организации государственного регулирования развития аграрного сектора как традиционной и эффективной отрасли экономики региона.

Методология исследования – в основном использовала методы анализа, синтеза, сравнения и обобщения. Кроме того, были привлечены научные труды по развитию аграрного сектора в Карабахском и Восточно-Зангезурском экономических районах.

С точки зрения прикладной значимости исследования можно отметить, что представленные в статье результаты могут быть использованы для разработки более эффективных механизмов развития аграрного сектора в Карабахском и Восточно-Зангезурском экономических районах.

По результатам исследования можно отметить целесообразность использования заключительных положений статьи при подготовке комплекса мероприятий по развитию аграрного сектора в указанных новых экономических районах.

Оригинальности и научной новизны исследования – можно отметить, что обоснована важность максимальной эффективности и производительности механизмов развития Карабахского и Восточно-Зангезурского экономических районов в современный период. В соответствии с особенностями развития региона и ресурсной обеспеченностью проанализирована роль аграрного сектора в экономическом строительстве этих экономических районов и даны более эффективные механизмы действия и направления, отличающиеся с практической точки зрения. Доведено до сведения значение вовлечения возможных ресурсов аграрного сектора в экономический оборот региона и обобщены предложения относительно соответствующих механизмов действия.

Ключевые слова: Карабах, Восточный Зангезур, экономические районы, аграрный сектор, проблемы развития аграрного сектора, ресурсы аграрного сектора.

Eldaniz Mazahir MAHARRAMOV
PhD in economics, Associate professor of
Azerbaijan University of Cooperation,
AZ1124, N.Nərimanov, 93, Baku, Azerbaijan Republic
E-mail: emeherremov79@mail.ru

Ways of state regulatıon of the development of the agrıcultural sector ın Karabakh and Eastern Zangazur

Summary

The purpose of the research is to develop new mechanisms to improve the ways of state regulation of the development of the agrarian sector in Karabakh and East Zangezur. The

construction and revival measures carried out in the newly created economic regions are intensifying. Former internally displaced persons are returning to their native lands. In this regard, there is a need for more efficient organization of state regulation of the development of the agrarian sector as a traditional and efficient sector of the economy for the region.

The research methodology mainly used methods of analysis, synthesis, comparison and generalization. In addition, scientific works on the development of the agricultural sector in the Karabakh and East Zangezur economic regions were referred to.

From the point of view of the applied significance of the research, it can be noted that the results presented in the article can be used to develop more efficient mechanisms for the agricultural sector in the Karabakh and East Zangezur economic regions.

In terms of the results of the study, it can be noted that it is appropriate to use the final provisions of the article in the preparation of a set of measures related to the development of the agricultural sector in the indicated new economic regions.

As the originality and scientific novelty of the research, we can note that the importance of the maximum efficiency and productivity of the mechanisms for the development of the Karabakh and East Zangezur economic regions in the current period has been substantiated. In accordance with the development characteristics of the region and resource provision, the role of the agricultural sector in the economic construction of these economic regions has been analyzed and more efficient action mechanisms and directions that differ from a practical point of view have been given. The importance of involving the possible resources of the agricultural sector in the economic turnover in the region has been brought to attention and proposals regarding the relevant action mechanisms have been summarized.

Key words: Karabakh, Eastern Zangezur, economic regions, agrarian sector, problems of development of the agrarian sector, resources of the agrarian sector.